# YURD YERİ DÜŞÜNCƏLƏRİ



Əli Rza Xələfli

*(Əvvəli qəzetimizin 50(1080) 29 dekabr 2021-ci tarixli sayında)*

## YADDAŞ YANĞISI
*(poema-esse)*
## II hissə

Uşaqlıq dünyamın uzaq günləri,
Bir-bir yaddaşımdan çiçəklər dərir;
O uzaq çağların yetim ünləri,
Yaddaşda söz olur, dildə göyərir.

Dildəki çiçəkli xatirələri,
Dərib misralara yığmaq hünərdi;
Əzabın bal kəsən zəhməti, təri,
Su versə baharım geri dönərdi.

Yaddaşdan gün düşər dərd dağlarıma,
Əriyər sinəmin qarı, buzu da;
Bir ana mələyər bu baharıma,
Çıxar çəmən üstə yetim quzu da.

Qəm evi sökülər gün işığında,
Gülər gözlərimdə arzum, diləyim;
Sözlərin qafiyə yaraşığında,
Oxşayar ruhumu ilham küləyim.

Gəlmişəm yurduma, sevin, ey ürək,
Yuxular beləcə çinə dönərmiş;
Vaxtın gərdişinə tənə nə gərək,
Yağının çırağı belə sönərmiş.

Xəyalın köhləni uçur göyündə,
Keçir dərə boyu, aşırım üstü;
Çillə tonqalı var könül köyündə,
Sözüm ocaq çatır, burulur tüstü.

Hər tüstü burumu bir misra düzüm,
Çəkib fikirləri sıraya yığır;
Neçə həsrətlini muştuluq sözüm,
Könlümün evinə, saraya yığır.

Xəyaldan ayrılır ruhum, yaddaşım,
Gözlərim oxşayır axar-baxarı,
Salam, həsrət çəkən torpağım, daşım,
Salam, dərd evimin sərvəti, varı.

Sözümün qapısı məktəb həyatım,
Burda taleyimi tikib qurmuşam;
Adınla yazılıb şeirim, bayatım,
İndi hüzurunda susub durmuşam.

Əlqəmə, hardasan, Qulam, bəri gəl,
Ay Telman, sənin də yerin bu qaya;
Yaddaşım, boy göstər, sən də bir dikəl,
Ruhumu söz elə, qaytar dünyaya.

Uşaqlıq dünyamız... qaldı başına,
Yiyəsiz açılan hər səhərimiz;
Sınıq güzgü kimi bəxtin daşına,
Dəyib, çilikləndi istəklərimiz.

Bilmədik bəlalar hardan yol açdı,
Dünyanın nizamı harda pozuldu;
Qara yuxular da bizə qol açdı,
Hər yuxu dərd üstə bəxtə yozuldu.

İllərcə uçmadı həsrətin taxtı,
Ayrılıq od qoydu sinəmiz üstə;
Yenə hakim bildik zamanı, vaxtı,
Bitdi dözüm üstə, dərd dəstə-dəstə.

Əlqəmə, əzizim, nallı qatırın,
Təpiyi yıxmadı sənə dəysə də;
Çəkilməz dərdləri çəkdi qatarın,
Qəzalar içində səni öysə də.

Şirin söhbətlərin duzlu, məzəli,
Yaddaşda yaşayır nağıl donunda;
Axırı nə oldu, nəydi əzəli,
Sənsizlik çağırır yolun sonunda.

Elnurun, Salehin ölümləri də,
Yandırır qəlbimi yazı boyunca;
Əlpənahdan sonra olumları da,
Yığar misralara sözüm doyunca.

Bu qədər ağrının, dərdin içində,
Sözüm qan ağlayır sətirlər boyu;
Açıb yaxasını durna köçündə,
Dərdin şənliyinə duyğular toyu.

Həsrət Qulamın da kəsdi yolunu,
Nicatı gəlmədi ocaqdan, pirdən;
Sözüm salamlayır bu yurd oğlunu,
"Qazağı" oynardı toylarda hərdən.

"Qazağı"... türk yurdu dağlar yeyirdi,
Cəsarət yaddaşda, yada qənimdi;
Varlığı, qüruru açıq deyirdi,
"Meydana girəndə meydan mənimdi".

Ali təhsil alıb kəndə qayıdan,
İşıq gətirmişdi Telman özündə;
Torpağa səpilən dəndə qayıdan,
Arzular, istəklər bitdi gözündə.

Könüllərə işıq paylasın deyə,
Telman əməlində özü yanırdı;
Bir klub səhnəsi ocaqdı köyə,
Yandıqca qəlblərdən nur oyanırdı.

Çırpınan ürəklər, titrək dodaqlar,
Dillərdə nəğmədi vaxtın səsində;
Səhnəyə can atan gənclər, uşaqlar,
Dəyişir sənətin cazibəsində.

Səhnədə mizanlar ağdır, qaradır,
Döyüşür yalanlar, doğrular burda;
Bir kəndin səhnəsi tarix yaradır,
Zaman həqiqəti sıxsa da darda.

Telman rejissordur, Telman aktyor,
Səhnədə alovlu şeirlər deyir;
Pərdələr açılır, çıxış edir xor,
Sənətə bir kəndin ruhu baş əyir.

Halalı çığnayıb yeyir haramlar,
Mövlud "Dəyirman"da halallıq gəzir;
İllərdir yol gələn "Köç"dən xəbər var,
Deyəsən, sözlüdür, Telman tələsir.

Səngəri qayalar, yarğanlar olan,
Bir vaxt dava-dava oynardıq kənddə;
Qanlı savaşlardan yadigar qalan,
Həsrətim ağlayır misrada, bənddə.

O vaxt bilməmişik dünya nə deyir,
Sən demə, bu həyat özü səhnədir;
Qoca dəyirmanda daş-daşı yeyir,
Suyu da sovulan arxdır, dəhnədir.

Qəbimi titədir xatirə, yaddaş,
"Qaytağı" səhnədə dövr elədikcə;
"Qazağı" oynayır gözlərimdə yaş,
Ruhumu, sözümü qəm bələdikcə.

Qurduğun mizanlar ocaq qalayır,
Gəlsin "Tərəkəmə", bu yurd sevinsin;
Yalquzaq ruhumuz yurdda ulayır,
Qayıtsın el-oba, o qurd sevinsin.

Telman Səlimoğlu - ata yolundan,
Bir soraq da Səlim Telman oğludur;
Səhnədə döyüşçü, Telman rolundan,
Cəbhədə döyüşçü Səlim doğrudur.

Yaş yolun üstündə kəsin bərəni,
Ağrılar canımda səngərlər qazdı;
Sənin yaratdığın "Uzundərə"ni,
Ay Telman, bəxtimiz ömürə yazdı.

Bir səs dalğa-dalğa ağ tül üstündə,
Zaman xalısında naxış toxuyur;
Bəxtin yazısında, al gül üstündə,
Arif Mürşid oğlu "Zabul" oxuyur.

Səsin oduna bax, alovuna bax,
Həsrətim qar üstə gülsün, gülməsin;
Ey könül, şimşək ol, göy üzündə çax,
"Dərdin xəstə cana gəlsin, gəlməsin".

Səsi çəkir cana, ruhum qovurur,
Qar üstə közərir dərdin ocağı;
Alıb düşüncəmi külək sovurur,
Ahlarım yandırır zamanı, çağı.

Qırxımda getmişdim, yetmişə yetib,
Qayıtdım yoluna, izinə sənin;
Gəlmişəm təzədən bu yerdə bitib,
A dağlar, baş qoyum dizinə sənin.

Saçlarım ağarıb, səsim qarıyıb,
Məni qəmlər yeyib, dərdlər qocaldıb;
Bəxti üzə gülüb həsrət yarıyıb,
Ayrılıq dərd evi - saray ucaldıb.

Qisməti, taleyi qalıb ağlara,
Elə bil dağların beli bükülüb;
Baxıram keçəllik basan dağlara,
Meşə saçları da yanıb, tökülüb.

Bu qədər ağrını, acını yığsam,
Sözümün karvanı yıxılar, çökər;
Yalquzaq dərdimlə tutaşsam, boğsam,
Qəzəbim yer yarar, dağları çəkər.

Bu yetim qayalar, yollar, cığırlar,
Sıyrılıb çıxacaq çəndən, dumandan;
Burda xatirələr simsar çağırar,
Qəzəb yeri deyil axı bu meydan.

Çağırım həyanlar, sözümlə gəlsin,
Fikirlər, duyğular yan-yana dursun;
Qoy məni duyanlar özümlə gəlsin,
Şeirimlə, sözümlə toy-düyün qursun.

Yavər Qaytaran da qara zurnada,
"Çoban-Bayatı"nı daş-daş yandırar;
Dağların üstündən keçən durnada,
Bir lələk payını yaddaş yandırar.

Sənətin eşqində yanan, yandıran,
Dağlara səs salar qara nəfəsi;
Çəkilər zülmətlər, açılar toran,
Dağılar həsrətin bu son qəfəsi.

Əlibala, Əli, Zaloğlular da,
Xələfli adına ucalanıblar;
Onlar illər boyu daşda, divarda,
Qalmış duyğulardan işıq alıblar.

Xələfli məktəbi... Zaloğluların,
İndi də and yeri, qiblə yönüsən;
Ötər soyuq qışın, gələr baharın,
Bütün istəklərin özü, önüsən.

Səsin də, sözün də qaynağı ürək,
Yolu düşüncədən, fikirdən keçər;
Durna qatarıdır düzlənən dilək,
Zaman karvanında ruhundan köçər.

Qoca Şahmalının ruhuna çatan,
Elman Mürşüdoğlu bir "Rast" oxusun;
Əsir kəndimizdə uyuyan, yatan,
Duyğular səsində xalı toxusun.

Elmanın səsində muğam pərdəsi,
Dağları yandıran qəm bəstəsidir;
Xanəndə dərdinin kökü, gövdəsi,
Ruhunda Qarabağ şikəstəsidir.

Gətir, gəl, ay Elman, səsini yurda,
Bulaqlar nəğməni zilə çevirsin;
Səsinlə canlansın dağlar da burda,
Susmuş nəğmələri dilə çevirsin.

Ramilin səsinin rəngləri çoxdur,
Alar harayımı səsinə qatar;
Deyirlər Allahın yuxusu yoxdur,
Bəlkə, bu münacat ona da çatar.

Allahım, hardaydı hökmün, kəsərin,
Yağı bu yurdları viran qoyanda;
Bəs hara baxırdı sənin gözlərin,
Xainlər baş kəsib, gözlər oyanda.

Görmədin bu yurda dərdlər əkildi,
Bu yurd da sənindir axı, Allahım;
Mizan-tərəzində necə çəkildi,
Sənin dərgahında tövbəm, günahım?

Allahım, səninlə haqq-hesabım var,
Çağır öz yanına imtahan verim;
Şahidim, sübutum xarabalıqlar,
İttiham yeridir bu edam evim.

Allahım, çağırdım Xudafərində,
Sənin min bir adın kara gəlmədi;
Axtardım dayazda, gəzdim dərində,
Ümidlər, inamlar üzə gülmədi.

İllər sıralandı, ötdü qərinə,
Zülmətlər içində keçdi sabahım;
Allahım, girmirəm sənin vərinə,
Axı səni tutar amanım, ahım.

Allahım, baxıram xaraba yurda,
Qəzəbim köksümdən kükrəyir, daşır;
Dönmüşəm yurdumda ulayan qurda,
Səsim buludlarda, göydə dolaşır.

Bu ağrı-acılar didməzdi məni,
Həsrət əvəzinə vüsal əksəydin;
Allahım, bilərdin sən də bəndəni,
Mənim çəkdiyimi özün çəksəydin.

Allahım, sən eşit bu münacatı,
Gör hansı dərdləri dilə gətirdim?
Allahım, nizamla sən bu həyatı,
Mən də bu ümidlə sözü bitirdim.

İzi itmiş kəndin yurd yerlərinə,
Əhməd Fərhad gəlsin, qəzəb gətirsin;
Dədə Qurbaninin uçuq qəbrinə,
Baxsın, gözlərindən əsəb gətirsin.

Pəri nənəsinin məzar daşına,
Başını söykəyib söz-söz göyərsin;
Bir şair qəlbində qalıb başına,
Dərdi sinəsində köz-köz göyərsin.

Dünya nizamını tutsun oduna,
Sözün ocağında yandırsın, ütsün;
İynəli misralar şair adına,
Acı həqiqəti yazsın, böyütsün.

Əli qələm tutan, dili söz tutan,
Hər şair bir daşın dərdini yazsın;
Həsrətlər içində yanıb köz tutan,
Viranə dərdlərin mərdini yazsın.

Əjdər Yunis Rza var, sözü ərköyün,
Gileyi yurdunda barışar, bitər;
Həsrətin sonunda vüsalın, toyun,
Sevinci ilhama qarışar, bitər.

Şair ilhamının dərdli yarpağı,
Misralara dönər, göz-göz danışar;
Əjdərin söz eşqi, qara torpağı,
Yandırar qəlbində köz-köz danışar.

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 8-ci səhifədə)*

Qarabağnamələr oxu kitabı,
Əjdərin ruhundan süzülüb gəlir;
Tanısın yurd odu... çoxu kitabı,
Bir şair qəlbindən düzülüb gəlir.

Yazımda, qəlbimdə sərhədləri yox,
Səsimdə, sözümdə bitə bilmirəm;
Onsuz da həsrətin dərdi, qəmi çox,
Ha yazam, sonuna yetə bilmirəm.

Yusif Dirilinin gözü böyüsün,
Bir baba yurdunun gor ocağında;
Həzin xatirələr necə uyusun,
Bir elin, bir yurdun kor ocağında.

Gordu Baba dağı... çıxsa baxardı,
Kimsəsiz Dirinin boyuna burdan;
Həzrəti Yusif də şimşək çaxardı,
Qurtara bu yurdu edamdan, dardan.

Molla Alı yurdu göyərər daş-daş,
Güllənər sənətin söz baharında;
Qaçaq Nəbi ruhu, oyanar yaddaş,
Nəriman Mahmudun kitablarında.

"Qarabağ: Xələfli səngəri" yazan,
Bir qələm zamanın adı, ünvanı;
Bir vaxt yurdumuzda qəbirlər qazan,
Mənfur yağılara qurar divanı.

Yaddaşım çağırır Qərər pirinə,
Yol üstə ocağa bir nəzirim var;
Yenə xatirələr çəkir dərinə,
Yetik istəkləri anlayan duyar.

Od tutub atəşdə yanır ürəyim,
Xaraba yurdları gözüm gördükcə;
Qovuşur ağrıdan, dərddən kürəyim,
Türsünlü yolunu sözüm hördükcə.

Sevdimalı, Mənsimalı kişilər,
Tuması, Cəmili xatırlayıram;
Yaddaşdan nə gəlir, bunu iş bilər,
Yaddaşlı günümü ömür sayıram.

Şükürün, Göyüşün, Atlıxanın da,
Adları yazıda, yaddaşda qalar;
Göydə şimşək olub od çaxanın da,
İzi məzar üstə bir daşda qalar.

Oruc Cəmil oğlu, Elnur Qərari,
Bir kəndin adına başucalığı;
Nürəddinin tarı, simin əyarı,
Dərdli ürəklərdə daş ucalığı.

Yazdığım, yozduğum sözüm-söhbətim,
Məndən salam olsun bu yerə, yurda;
Bir vaxt verməediyim nəzir qismətim,
Sözümdən pay olsun hər bərə yurda.

Mən burdan keçmişəm, ötüb illəri,
Ocağım, gəlmişəm, yoxlama məni;
Gün doğsun gününə, ay Qərər piri,
Yol ver, yol üstəyəm, saxlama məni.

Gecənin, gündüzün söz arasında,
Yol yordum, demədim hara gedirəm;
Sönmüş ocaqların köz qarasında,
Yaddaşın hökmündə dara gedirəm.

Xəyalım yol üstə səngidi bir az,
Könlümə su səpdi bir daş bulağı;
Bir az "Ruhani"dir, "Cəngi"dir bir az,
Bir az da savaşdır yaddaş qalağı.

Yenə də Xələfli göyündə gəzir,
Ruhum seyr eləyir dağı, Aranı;
Xəyalım yel olub üstündən əsir,
Qaytarır yaddaşa ağı, qaranı.

Bahadinin evi... izi də yoxdur,
Məhəmməd, Əliyar qayıdar, görər;
Rəhimin, Qubadın söhbəti çoxdur,
Yazsam dastan bitər, nağıl göyərər.

Bilal oğulları, hardasınız siz,
Gözləyir bu yurdun daş çiçəkləri;
Qayıdın bu yurda, görəcəksiniz,
Doğub gözlərində yaş çiçəkləri.

Famil Həsənoğlu... baytar həkimi,
Bir sözlü, söhbətli nağıl kişiydi;
Onu tanıyanlar... görsən hər kimi,
Soruşsan deyərlər ağıl kişiydi.

Bəxtiyar, Balaca... onlara adət,
Yolu düz saxlamaq... dindirmə, dindir;
Xələfli kəndində üstün ibadət,
İnsanlıq, adamlıq ən uca dindir.

Saydam Nemətoğlu... xalamın əri,
Mərəkə üstündə hünərvər idi;
Hesabdar Məhəmməd... görünər yeri,
Bu kənd adam-adam bir səngər idi.

Adlar var, yazılar hələ geridə,
Şöhrətdən basılmaz qala qurdular;
Əlfəddin, Şəmşir var... sözdən bəridə,
Vətən savaşında öndə durdular.

İşıqçı Abbasın nəvələri də,
Döyüşdə qanından keçən oğullar;
Gərək unutmayım bir hünəri də,
Gələn nəsillərə dərsdir nağıllar.

Hər kitab, hər yazı qəlbimin odu,
Xələfli eşqinə ocaqdır sinəm;
Desəm, deməsəm də həqiqət budur,
Bir də bu yerlərə, ya qismət, dönəm.

Nəvələrim Amur, Aral, nə deyim,
Sizdən hər nə yazsam, yenə də azdır;
Ceyhunun, Rizvanın boyunu öyüm,
Qürur qaynağında təbim ayazdır.

Tarixdən əmanət qalan varımın,
Adı Atilladan, Turandan gəlir;
Döyüş yolu keçən doğmalarımın,
Ruhları tarixdən, zamandan gəlir.

Ay Anar, ay Araz sizin üçün də,
Məndən əmanətdir ocağım, qorum;
Yurda qayıdanda elin köçündə,
Sizi də yol üstə istəkdə görüm.

Yurd eşqi çağlasa zamanın, vaxtın,
Sönmüş ocaqları qalamağı var;
Zəhmətlə birləşən taleyin, baxtın,
Qurd olub yurd üstə ulamağı var.

Şairin davası, yaddaş davası,
Qayıtsın doğmalıq, bitsin qovğalar;
Bülbül nəğmələri yurdun səfası,
Bu eşqin önündə susar qarğalar.

Üzülməz qəlbimin odu, atəşi,
Xələfli havası nəfəs gətirər;
Sözüm salamlayar dağda günəşi,
Qəlbimdə yurd eşqi inam bitirər.

Şairin yarası... yurdun yarası,
Yurdun dağlarında ruhu dağ olar;
Bir şair qəlbinin axır çarəsi, -
Yurdu sağalanda şair sağalar.

Qəlbimdə yeri var Rövşən həkimin,
Gözlərinin nuru ruhu qoruyar;
Qəza da yükünü əysə hər kimin,
Çıxar qabağına, Nuhu qoruyar.

Vətən... müharibə... yaralı... ölüm,
Qan-qada... ah-nalə, göynəm, yara var;
Həkimlər döyüşür... yaşasın olum,
Yer üstə əl çatan daha hara var?

Ruhuma qaranlıq çökdüyü zaman,
Rövşənin işığı güldü üzümə;
Dağıldı gümanlı, şübhəli duman,
Qayıtdı eşq odu yenə sözümə.

Mahmud oğlu Məşi - babanın baxtı,
Xan keyfi sürərdi Araz üstündə;
Müdrik Süleymanın bir şöhrət taxtı,
Yaşayar yaddaşda taraz üstündə.

İndi xatirələr mənə "gəl" deyir,
Əlçatmaz, ün yetməz çağlara sarı;
Açılan səhərlər yenə "gül" deyir,
Baxıb kövrəlirəm dağlara sarı.

Əsgər yarasında üşüyən canın,
Ümidi, inamı səndən od alsın;
Yarası sağalan Azərbaycanın,
Üçrəngli bayraqla adı ucalsın.

Gəlsin Əsmər Hüseynxan qızı, görsün,
Bu ata yurdunda daşlar nə deyir;
Uçmuş xatirəni, yaddaşı hörsün,
Görsün ki, bu dağlar necə dərd yeyir.

Bir ata ağrısı, bir yurd ağrısı,
İllərdir sözündə qoşa ağlayır;
Ulayır qəlbində ac qurd ağrısı,
Torpağa ağlayır, daşa ağlayır.

Qarabağ, Cəbrayıl, Xələfli dərdi,
Əkildi torpağa Mildə, Muğanda;
Yaddaşın ağrısı daha betərdir,
Əbədi sızlayar ilikdə, qanda.

Əziz dostum Sahib Bəylər oğlunun,
Həyatı bir kitab - romandan üstün;
Xələfli kəndində düzün, doğrunun,
Timsalı olacaq zamandan üstün.

Alimlik adını kəndə ilk dəfə,
Gətirdi elminin inadı kimi;
Dünya elminə də verdiyi töhfə,
Onun oğulları öz adı kimi.

# YURD YERİ DÜŞÜNCƏLƏRİ

Bacıoğlu Kənan qırıcısında,
Uçuşlar elədi düşmən üstünə;
Həyat şirinində, ya acısında,
Hünərlə yeridi yağı qəsdinə.

Diridən bir nəfəs sözümə gəldi,
Mehman Sabiroğlu igid həkimdir;
İgidlik, həkimlik... söz üzə güldü,
Sözdən ucalıqda soruşma kimdir.

Qəlbimdə ocağı, odu var olan,
Hər kəs istəyindən bir qor gətirsin;
İnamlar daşlarda saralıb solan,
Viranə evlərdə ümid bitirsin.

Söz ömrü yaşayan Sabir Şirvanın,
Məramı düz yola işıq saçmaqdır;
Könül qapıları bağlı qalanın,
Üzünə sözündə qapı açmaqdır.

"Gordu Baba" üstdən köçən durnalar,
Sözüm qanad olar uçan lələyə,
Bir şair qəlbində çırpıntılar var,
Deyirəm "Səs salma", əsən küləyə.

Sabiri yandıran "Könlümün közü",
Bir ocaq qalayar Xələf dağında;
Haqqın divanıdır bir şair sözü,
Hesabını sorar ötən çağın da.

Dərdli xatirələr anlayar, duyar,
Yatmış duyğuları oyatmayın siz;
Yazdığım hər sözdə əmanətim var,
Dedim "Ellər, məni unutmayın" siz.

Vüsal xəbərinə sevinər, gülər,
Xəqani qürbətdən kəndinə dönər;
Bir ana ürəyi imana gəlsə,
Fikirlər gül açar, duyğular dinər.

Qoy mənim sənətim, şeirim oyatsın,
Yaddaşı korşalıb pas atanları;
Yığıb ruhlarına yurda qayıtsın,
Bu elin, obanın öz sultanları.

Neçə dost tənəsi, paxıl yarası,
Qəlbimdə iz qoydu illər uzunu;
Hər dönük sifətlər bir üz qarası,
Yazsam, qaçıraram sözün duzunu.

Ay Rövşən, əzizim, işıq adını,
Sənin əməlində, sözündə gördüm;
Sənin işığını, sənin odunu,
İtən ümidlərin közündə gördüm.

Həkimlər, sizsiniz Allahın əli,
Allahın gözü var gözlərinizdə;
İnsanı yaşadan ağlı, əməli,
Ümid qaynağıdır sözləriniz də.

Mehmanın, Rövşənin adları bir-bir,
Burda sıralanıb qələmdən keçir;
Onsuz da həyatın işi belədir,
Axarı nəşədən, ələmdən keçir.

Mehman... Suqovuşan... Kəlbəcər yolu,
Cəbhənin odunu, qanını gördü;
Rövşən də Cəbrayıl, Zəngilan qolu,
Vətənin yaralı canını gördü.

Ay Mehman, əzizim, ordan salam de,
Ulu Nizaminin məqbərəsinə;
Bir şair adından isti kəlam de,
Kəlbəcər, Murovdağ yan-yörəsinə.

Ey həkim, əsgərsən, döyüş gücünlə,
Hər uğur bir ana sevinci olsun;
İnamın, inadın, əzmin özünlə,
Könüllər şadlığa, fərəhə dolsun.

Bir az da qayıdaq keçmişə sarı,
Gəzək Araz boyu yurd yerlərini;
Bir gün də sökülər həsrət hasarı,
Doyunca gəzərik dərd yerlərini.

Mehman, yadındamı, Diri dağının,
Bənövşəli yurdu, Qurbani izi;
İtmiş dünyamızın qızıl çağının,
Gülü bəzəyərdi bələni, gəzi.

Azərin, Anarın şöhrət ünvanı,
Vətənin qüruru, fəxridir indi;
Zamanla savaşda qursa divanı,
Qələbə hər zaman gələcəyindir.

Uzaq Amerika... Xələflinin də,
Bu güc dövlətində şöhrət payı var;
Harda olsalar da bu türk genində,
Vətənin yaşayan haqqı-sayı var.

Azər də, Anar da qayıdar bir gün,
Doğma Xələflidə ocaq yandırar;
Yurda qayıdışın özü toy-düyün,
Sevinən ocaqlar çıraq yandırar.

Oruc Əsgəroğlu, bozqurd İxtiyar,
Sizinlə söhbətim hər zaman həzin;
İtmiş cığırlar da sizi çağırar,
Şəhid qardaşların ruhunu gəzin.

Yaddan çıxarmı heç qoçaq Almazxan,
Atası Əsgərə ucalıq verdi;
Bir oğul dağında sinəsi yanan,
Anası Nübar da dərd, ələm dərdi.

Bizim Vilayətin - Fərhadoğlunun,
Yolunu izlədim cəbhə boyunca;
Sözümdə yeri var düzün, doğrunun,
İgidlik görürəm Baba soyunca.

*(Davamı var)*

